# “Hosting XİDMƏTİNİN GÖSTƏRİLMƏSİNƏ dair”

# MÜQAVİLƏ № 2026/xx

Bakı şəhəri 21 aprel 2026-ci il

Bir tərəfdən bundan sonra "Provayder" adlanacaq Azərbaycan Respublikası qanunvericiliyinə uyğun fəaliyyət göstərən "HOSTIMUL" MMC (VÖEN: 1005344951), nizamnamə əsasında fəaliyyət göstərən **Direktor: Eldəniz Məmmədli Mikayıl oğlu**, digər tərəfdən bundan sonra "Sifarişçi" adlanacaq **[Şirkət/Təşkilat adı]** (VÖEN: [______]), nizamnamə əsasında fəaliyyət göstərən **[Rəhbər vəzifəsi: Ad, soyad]**, şəxsində aşağıdakı şərtlərlə bu Müqaviləni bağlayırlar.

## 1. Müqavilənin predmeti

**1.1** Bu Müqaviləyə əsasən Provayder, Müqavilənin ayrılmaz hissəsi olan 1 saylı Əlavəyə (Qiymətlərin Razılaşdırılması Protokolu) uyğun olaraq, Sifarişçiyə xidmətlər göstərir, Sifarişçi isə həmin xidmətlərin haqqını ödəməyi öhdəsinə götürür.

**1.2** Bu Müqavilə çərçivəsində təqdim edilən xidmətlərə hostinq, VPS, fiziki server, SSL sertifikatı, e-mail hostinqi və tərəflər arasında razılaşdırılmış digər əlaqəli xidmətlər aid edilə bilər.

**1.3** Xidmətin növü, həcmi, texniki parametrləri, istifadə müddəti və qiyməti Müqavilənin 1 saylı Əlavəsində göstərilir.

## 2. Xidmətin qiyməti və ödəniş şərtləri

**2.1** Bu Müqavilə üzrə təqdim edilən xidmətlərin haqqı Müqavilənin ayrılmaz hissəsi olan 1 saylı Əlavə (Qiymətlərin Razılaşdırılması Protokolu) ilə müəyyən edilir.

**2.2** Xidmət haqqı əvvəlcədən ödənilir.

**2.3** Provayder tərəfindən elektron qaydada, o cümlədən e-poçt vasitəsilə təqdim edilən hesab-faktura ödəniş üçün hüquqi əsas hesab olunur.

**2.4** Ödəniş, Provayder tərəfindən təqdim edilmiş hesab-faktura əsasında, həmin sənədin təqdim edildiyi tarixdən etibarən 14 (on dörd) təqvim günü ərzində həyata keçirilməlidir. Son ödəniş günü qeyri-iş gününə təsadüf etdikdə, növbəti iş günü son ödəniş günü hesab olunur.

**2.5** Ödənişlər Provayder tərəfindən təqdim olunan onlayn ödəniş sistemləri, bank köçürməsi və ya nağd qaydada, 1 saylı Əlavədə göstərilən valyutada həyata keçirilir.

**2.6** Xidmətlərə tətbiq olunan endirimlər yalnız ilk xidmət dövrü üçün qüvvədədir və növbəti dövrlərdə standart qiymətlər tətbiq olunur.

**2.7** Sifarişçi yalnız hostinq xidməti üzrə Müqavilənin imzalandığı tarixdən etibarən 30 (otuz) təqvim günü ərzində xidmətdən imtina edərək ödənişin geri qaytarılmasını tələb edə bilər. VPS, fiziki server, SSL sertifikatı, e-mail hostinqi və digər xidmətlər üzrə ödənilmiş məbləğ geri qaytarılmır, qanunvericilikdə və ya tərəflərin yazılı razılaşmasında başqa hal nəzərdə tutulmadıqda.

## 3. Tərəflərin hüquq və öhdəlikləri

**3.1** Sifarişçinin hüquq və öhdəlikləri

**3.1.1** Sifarişçi bu Müqavilənin şərtlərinə və 1 saylı Əlavəyə uyğun olaraq xidmətlərin göstərilməsini tələb etmək hüququna malikdir.

**3.1.2** Sifarişçi xidmətlərdən Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq hüquq normalarına və internet resurslarından istifadə qaydalarına uyğun istifadə etməyi öhdəsinə götürür.

**3.1.3** Sifarişçi qanunvericiliyə zidd, üçüncü şəxslərin hüquqlarını pozan, zərərli proqram təminatı, virus, SPAM və ya digər qadağan olunmuş materialların yerləşdirilməsinə və yayılmasına yol verməməlidir.

**3.1.4** Sifarişçi Provayderin texniki tələblərinə və xidmətlərdən istifadə qaydalarına riayət etməlidir.

**3.1.5** Sifarişçi xidmət haqqını bu Müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödəməlidir.

**3.1.6** Sifarişçi xidmət çərçivəsində yerləşdirdiyi və ya istifadə etdiyi məlumatların, məzmunun, proqram təminatının və digər materialların qanuniliyinə, təhlükəsizliyinə və istifadəsinə görə müstəqil məsuliyyət daşıyır.

**3.1.7** Sifarişçi hüquqi ünvanı, əlaqə məlumatları və ya hüquqi statusu dəyişdiyi halda bu barədə Provayderi dərhal məlumatlandırmalıdır.

## 3.2. Provayderin hüquq və öhdəlikləri

**3.2.1** Provayder bu Müqavilə və 1 saylı Əlavə əsasında razılaşdırılmış xidməti Sifarişçiyə təqdim etməyi öhdəsinə götürür.

**3.2.2** Provayder xidmətlərin göstərilməsi üçün zəruri texniki şəraiti təmin edir.

**3.2.3** Provayder profilaktik və ya texniki tədbirlərin görülməsi məqsədilə xidməti müvəqqəti dayandırmaq hüququna malikdir. Bu halda, mümkün olduqda, Sifarişçiyə əvvəlcədən məlumat verilir.

**3.2.4** Xidmətin göstərilməsi üçün təqdim edilən IP ünvanlar, sertifikatlar, texniki resurslar və digər aidiyyəti vasitələr, mahiyyət etibarilə başqa cür nəzərdə tutulmadıqda, Provayderin və ya müvafiq hüquq sahibinin mülkiyyətində qalır.

**3.2.5** Provayderə məxsus olmayan avadanlığın sıradan çıxması, rabitə problemləri, üçüncü tərəf xidmətlərində yaranan nasazlıqlar və ya Provayderdən asılı olmayan digər səbəblər nəticəsində xidmətlərdən istifadə mümkün olmadıqda, Provayder bu hallara görə məsuliyyət daşımır.

**3.2.6** Provayder Sifarişçi tərəfindən yerləşdirilən və ya istifadə olunan informasiyanın məzmununa və həmin məlumatlardan irəli gələn nəticələrə görə məsuliyyət daşımır.

**3.2.7** Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aidiyyəti dövlət orqanlarının qanunla müəyyən edilmiş qaydada təqdim etdiyi yazılı sorğular əsasında məlumat verilməsi halları istisna olmaqla, Provayder Sifarişçiyə aid məlumatların üçüncü şəxslərə açıqlanmamasını təmin edir. Qanunvericiliklə məhdudiyyət nəzərdə tutulmadıqda, belə hallarda Sifarişçiyə məlumat verilir.

## 4. Əlavə xidmətlər və dəyişikliklər

**4.1** Provayder tərəfindən göstərilən xidmətlərin həcmi, sayı və ya növü Sifarişçinin yazılı müraciəti əsasında tərəflərin qarşılıqlı razılığı ilə dəyişdirilə və ya artırıla bilər.

**4.2** Bu halda Müqavilənin 1 saylı Əlavəsinə müvafiq dəyişikliklər edilir və həmin dəyişikliklər tərəflər üçün məcburi hesab olunur.

## 5. Müqavilənin müddəti və ləğvi

**5.1** Bu Müqavilə imzalandığı gündən etibarən 3 (üç) il müddətində qüvvədədir.

**5.2** Tərəflərdən heç biri Müqavilənin müddətinin bitməsinə 30 (otuz) təqvim günü qalmış onun ləğvi barədə yazılı bildiriş təqdim etmədikdə, Müqavilə növbəti 1 (bir) il müddətinə avtomatik uzadılır.

**5.3** Sifarişçi təqdim olunmuş bütün hesablar üzrə öhdəliklərini yerinə yetirmək şərti ilə, Provayderə ən azı 30 (otuz) təqvim günü əvvəl yazılı bildiriş təqdim etməklə xidmətdən imtina edə bilər.

**5.4** Tərəflərdən hər hansı biri Müqavilə üzrə öhdəliklərini pozarsa və yazılı xəbərdarlığa baxmayaraq həmin pozuntunu aradan qaldırmazsa, digər tərəf Müqaviləni birtərəfli qaydada ləğv etmək hüququna malikdir.

**5.5** Müqavilənin ləğv olunması Tərəfləri həmin vaxta qədər yaranmış və icrası tələb olunan qarşılıqlı öhdəliklərin yerinə yetirilməsindən azad etmir.

## 6. Mübahisələrin həlli qaydası

**6.1** Bu Müqavilənin icrası və ya ləğvi ilə bağlı yaranan mübahisələr ilk növbədə tərəflər arasında danışıqlar yolu ilə həll edilir.

**6.2** Mübahisələr danışıqlar yolu ilə həll edilmədikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

## 7. Məxfilik

**7.1** Müqavilənin icrası ilə əlaqədar tərəflərə məlum olmuş texniki, maliyyə, inzibati və digər məlumatlar məxfi hesab edilir və qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla üçüncü şəxslərə açıqlana bilməz.

**7.2** Məxfi məlumatın digər tərəfin yazılı razılığı olmadan yayılması həmin tərəfin məsuliyyətə cəlb edilməsi üçün əsasdır.

### 8. Fors-major

**8.1** Tərəflərin iradəsindən asılı olmayaraq baş verən və qarşısıalınmaz qüvvə hesab edilən hallar nəticəsində Müqavilə üzrə öhdəliklərin qismən və ya tam yerinə yetirilməməsinə görə Tərəflər məsuliyyət daşımırlar.

**8.2** Qarşısıalınmaz qüvvə hallarına zəlzələ, yanğın, daşqın, pandemiya, dövlət orqanlarının qərarları, hərbi əməliyyatlar, terror aktları və Tərəflərdən asılı olmayan digər hallar daxildir.

**8.3** Fors-major halına istinad edən Tərəf bu barədə digər Tərəfi mümkün olan ən qısa müddətdə yazılı şəkildə məlumatlandırmalıdır.

**8.4** Əgər fors-major halı 1 (bir) aydan çox davam edərsə, hər bir Tərəf digər Tərəfə yazılı bildiriş verməklə Müqaviləni birtərəfli qaydada ləğv edə bilər.

## 9. Texniki dəstək

9.1 Provayder Sifarişçiyə təqdim etdiyi xidmətlərlə bağlı texniki dəstək göstərir.

9.2 Provayder xidmətin keyfiyyətinin aşağı düşməsi, nasazlıqlar və kəsintilərin aradan qaldırılması üçün zəruri tədbirlər görür.

**9.3** Sifarişçi nasazlıq və ya xidmətlə bağlı problem yarandıqda bu barədə Provayderi dərhal məlumatlandırmalıdır.

**10. Digər şərtlər**

**10.1** Bu Müqaviləyə edilən bütün əlavə və dəyişikliklər yazılı formada rəsmiləşdirilir və tərəflərin imzası ilə təsdiq edilir.

**10.2** Bu Müqavilə Azərbaycan dilində 2 (iki) nüsxədə tərtib olunur və hər iki nüsxə eyni hüquqi qüvvəyə malikdir.

**10.3** Tərəflərin elektron ünvanlar vasitəsilə bir-birinə göndərdikləri sənədlər, hesab-fakturalar, bildirişlər və yazışmalar hüquqi qüvvəyə malik hesab olunur.

**TƏRƏFLƏRİN REKVİZİTLƏRİ**

**Provayder**

**"HOSTIMUL" MMC**

Elektron ünvan:info@hostimul.com
Ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti.192E
VÖEN: 1005344951
H/H: AZ08PAHA40060AZNHC0100082828
Bank: "PAŞA Bank"ASC
VÖEN: 1700767721
Kod: 505141
M/H: AZ82NABZ01350100000000071944
S.W.I.F.T.BİK: PAHAAZ22

**Direktor: Eldəniz Məmmədli Mikayıl oğlu**

_________________________

*(imza, möhür)*

**Sifarişçi**

**Xxx təşkilat**

Elektron ünvan:
Ünvanı:
VÖEN:
H/H:
Bank:
VÖEN:
Kod:
M/H:
S.W.I.F.T:

**Direktor: xxx xxxx**

_________________________

*(imza, möhür)*

## 2026/xx № Müqaviləyə 1 saylı əlavə

## Qiymətlərin razılaşdırılması protokolu

| № | Xidmətin adı | Ölçü vahidi | Miqdar | Qiymət | Məbləğ |
|---|---|---|---|---|---|
| 1 | | 1 | 1 | AZN | Xxx AZN |
| | | | | | |
| | Yekun: | | | | xxx AZN |
| | | | | | |

## TƏRƏFLƏRİN İMZASI:

**PROVAYDER:**
**“HOSTIMUL” MMC**

**SİFARİŞÇİ:**
**Xxx teskilat**

______________________________

**Direktor: Eldəniz Məmmədli Mikayıl oğlu**

______________________________

**Direktor: xxx xxx**